# Rəqs sənətimizin inkişafında Əlibaba Abdullayevin xidməti



*Əhsən* Rəhmanlı
***tədqiqatçı,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***BXA-nın doktorantı***
*ahsanrahmanli@mail.ru*

Azərbaycan rəqslərinin, folklorun səhnə təcəssümündə, milli rəqslərin formalaşmasında, quruluşlar şəklində ilə səhnə həyatında özünü doğruldub geniş təşəkkül tapmasında Əlibaba Abdullayevin çox böyük xidmətləri olmuşdur. Məqalələrimizdə onun çoxşaxəli yaradıcılığını müxtəlif yönümlərdən işıqlandırmışıq. Bu yazıda da bir sıra istiqamətlərə toxunuruq.

Ə.Abdullayevin yaradıcılığında mənəvi dəyərlər həmişə geniş yer tutub. O, bütün yaradıcı həyatını Azərbaycan rəqs sənətinə həsr edib. Onun rəqs quruluşları bu gün də yaşayır. Əlbəttə, bu onun yaradıcılıq ömrünün XXI əsrdəki davamıdır. Geniş biliyə, eridusiyaya, zəngin bədii fikirlərə, həssas hisslərə və fəhmə malik bu xoreoqrafın səhnə üçün hazırladığı rəqslərin hər biri məzmun və süjet fərdiliyi ilə bərabər həm də müxtəlif müstəvilərdə qurulub.

Ə.Abdullayev daim öz üzərində işləyir, heç vaxt yorulmur, həmişə nəsə axtarır, düşünür, müəyyən nəticəyə gəlirdi. O, nağıl, dastan, pyes, hekayə oxuyur, rəsmlər çəkir, rəssamların əsərlərindəki maraqlı fikirlərdən də bəhrələnirdi. Ə.Abdullayev 1950-ci ildə filarmoniyanın müdiriyyətinə ərizə ilə müraciət edərək Moskvaya, İqor Moiseyevin ansamblına ixtisas artırmaq məqsədilə göndərilməsini xahiş edir. Çox əfsus ki, bu məsələ 1956-cı ildə həll olunur. Həmin ilin dekabrında nazirlikdən İ.Nəzərovun imzası ilə Ə.Abdullayevə məktub verilərək İ.Moiseyevin “Beryozka” və Alek-sandrovun an-samblarında təcrübə keçmək üçün paytaxta göndərilir. Məktubda göstərilir: “Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı üçün yeni proqram hazırlanması ilə əlaqədar həmin rəqs qrupunun rəhbəri Abdullayev Əlibaba Moskava şəhərinə yaradıcılıq ezamiyyətinə göndərilir. Xahiş olunur ki, ona kollektivin məşqlərində iştirak etmək üçün şərait yaradılsın”.

Ə.Abdullayev Moskvada təcrübə keçərək qayıdır. Yenə öz sevdiyi işi davam edir, qurur, yaradır, lakin ştat məsələsi həll olunmur. O, həm filarmoniyanın solisti, həm də sənədlə rəsmiləşdirilməmiş baletmeyster kimi çalışır. Bu hal 1938-1939-cu illərdən başlamış və düz 20 il davam etmişdi.

Dövlət Mahnı və Rəqs Ansamblı 1958-ci ildə Azərbaycan SSR-nin əməkdar kollektivi adına layiq görülüb. Bu bədii kollektiv SSRİ adlı dövlətin Mərkəzi Moskvada 1938-ci ildə və 1959-cu ildə keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində rəngarəng repertuar və uğurlu çıxışları ilə nəzər diqqəti cəlb etmiş və böyük şöhrət tapmışdı. Hər iki dekadada Ə.Abdullayevin bir rəqs sənətçisi olaraq misilsiz xidməti olmuşdu.

1959-cu ilin may ayında Moskavada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə də Dövlət Mahnı və Rəqs Ansamblı zəngin proqramla çıxış edərək yüksək nailiyyətlərə imza atmışdı. Bədii rəhbər Qılman Salahov, baş baletmeyster Qəmər Almaszadə, baletmeyster Əlibaba Abdullayev, milli geyimlər üzrə rəssam Reyhan Topşubaşova idi. Burada oynanılan rəqslərin, suitaların və kompozisiyaların quruluşunu Əlibaba Abdullayev vermişdi. Bütün bunlar onun aşıb-daşan istedadının və gərgin əməyinin sayəsində başa gəlmişdi. O, Azərbaycan bəstəkarlarının əsərləri əsasında xoreoqrafik proqramlar hazır-lamışdı. Misal olaraq Ü.Hacı-bəylinin musiqisinə “Vətən və cəbhə”, C.Cahangirovun musiqisinə “Vətən” və “Məhsul” suitalarını göstərmək olar (2, s.60).

Əslində ansambl dekada üçün hazırlığa 1 il əvvəldən başlamışdı. Ciddi hazırlıq gedir, gərgin iş günləri və



Солисты Наиля Махмудова и Горхмаз Курбанов
Танцевальный дуэт

səmərəli iş ayları bir-birini əvəz edirdi. Yüksək səviyyəli proqram üzərində iş gedirdi. Ansamblın repertuarındakı “Xalqlar dostluğu” xoreoqrafik suitası Niyazinin rəhbərlik etdiyi Ü.Hacıbəyov adına Azərbaycan Dövlət simfonik orkestrlə birgə hazırlanmışdı.

Moskvadan, SSRİ Mədəniyyət Nazirliyindən nümayəndə heyəti gəlib dekadanın proqamı ilə tanış olmuşdu. Onlar Mahnı və Rəqs Ansamblının proqramına M.F.Axundov adına Opera və Balet Teatrının səhnəsində tamaşa etmişdilər.

Ansamblın proqramı iki hissədən ibarət idi. Birinci şöbəyə “Neftçilər”, “Gənclik” suitaları, “Nazlana-nazlana”, “Çobanlar” və “Cin” rəqsləri, ikinci şöbəyə “Vətən” suitası, “Üç gül”, “Şəki”, “Qaytağı”, “Yallı” və “Çadra ilə rəqs” daxil edilmişdi. O vaxtkı Mədəniyyət naziri Məmməd Qurbanov Əlibaba Abdullayevlə məsləhətləşib ona yeni rəqs hazırlamağı tapşırmışdı. Bu rəqsin solisti 44 yaşlı Qəmər Almaszadə olacaqdı. Çünki həmin ərəfədə ona SSRİ xalq artisti fəxri adı veriləcəkdi.

Ə.Abdullaev Moskva dekadası üçün Mahnı və Rəqs Ansamblı və Opera və Balet Teatrının rəqs qrupları ilə iki ay yarım məşq edərək möhtəşəm “Məhsul” suitasını da hazırlamışdı. C.Cahangirova bu rəqs üçün təcili musiqi yazmaq həvalə olunmuş və rəqsin tərkibinə Qəmər Almaszadə üçün solo da daxil edilmişdi. R.Topçubaşovanın eskizləri əsasında rəqs paltarları biçilir, pambıq, meyvə və s. butaforlar hazırlanır. “Məhsul” suitası Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində təntənəli şəkildə öz səhnə təcəssümünü tapır. Dekadada bu əsərdəki solo çıxışına görə Q.Almaszadəyə SSRİ xalq artisti fəxri adı verilir. 11 iyun 1959-cu il tarixdə mətbuatda Qəmər Almaszadə, Rəşid Behbudov, Adil İskəndərov, Qara Qarayev və Niyazi Hacıbəyov-Tağızadənin SSRİ xalq artisti adı almaları barədə məlumat verilmişdi.

Həmin ongünlükdə Ə.Abdullayevin yeni qurduğu və onun şah əsəri olan “Məhsul” suitası və “Şəki rəqsi” tarixə yazılmışdı. Onun qırx nəfər rəqqas üçün qurduğu “Nağaraçılar” rəqsi də xüsusi marağa səbəb olmuşdu.

Dekada zamanı Moskvanın bütün zallarında (həmçinin Çaykovski zalı), teatrların səhnələrində, mədəniyyət və istirahət parklarında, Kremlin Sütunlu Salonunda konsertlər verilirdi.

Yorulmaq bilmədən çalışan, yaradıcılıq çeşməsi aşıb-daşan, bütün varlığı, düşüncəsi ilə xalqın incəsə-nətinə qaynayıb-qarışan, qululuş verdiyi rəqslər zövq oxşayan, ölkəsi üçün çalışmaqdan özünü xoşbəxt sayan, doğma vətənə xidmət etməkdən fəxr duyan Ə.Abdullayev 1959-cu ildə çoxdan arzusunda olduğu “Azərbaycan toyu” kompozisiyasını hazırlayır. O, bu möhtəşəm kompozisiyanı Opera və Balet Teatrının rejissoru Soltan Dadaşovun ssenarisi əsasında qurur. Burada qəlb oxşayan, cazibədar, dərin məzmunlu rəqslər öz əksini tapır. On altı ildən sonra, 1959-cu ildə “Azərbaycan toyu” tamaşası yeni quruluşda oynanılaraq böyük əhəmiyyət kəsb etdi. Düzgün rol bölgüsü aparılmışdı. Bəy Ramiz Məmmədov, gəlin Roza Cəlilova, yengə Məryəm Babayeva və xəlfə Tələt Ağalarov idi. Başqa iştirakçılar sırasında isə Böyükağa Məmmədov, Tutu Həmidova, Xoşbəxt Məmmədova, müğənnilər Məmməd Salmanov, Elmira Rəhimova və neçələrinin adını çəkə bilərik.

“Azərbaycan toyu” Azərbaycan Dövlət filarmoniyasında bir ay ardıcıl olaraq hər gün oynanılsa da, hamı onu görməyə can atırdı. Kassada isə bilet tapılmırdı, tamaşaçılar az qala giriş qapısını sındırırdılar (2, s.167). Bu rəqs-tamaşada bəy rolunda Ramiz Məmmədov çıxış edirdi. Onun xariçi görünüşü, qəddü-



qaməti, boy-buxunu, cəlb edici siması, gözəlliyi, üstəlik də mahərətli rəqqas kimi çıxışı “Azərbaycan toyu” kompozisiyasının uğurunu daha da artırır və verilən quruluşu daha da rövnəqləndirirdi. Sonralar həmin kompozisiyada mərhələlərlə bəy rolunda Azad Hüseynov və Xanlar Bəşirov çıxış etmişdir. 1970-ci illərin birinci yarısında Ə.Abdullayevin quruluşu əsasında hazırlanmış “Azərbaycan toyu” kom-pozisiyasında bəy Müslüm Məmmədov, gəlin Leyla Ağayeva olmuşdur.

1959-cu ildə Moskva dekadası bitəndən sonra Şövkət Ələkbərova, Əminə Dilbazi, Səfurə Qədimova və Ə.Abdullayevə Azərbaycan SSR-in xalq artisti fəxri adı verilir. Onu da qeyd etməliyik ki, Ə.Abdullayevin Azərbaycan Dövlət Universitetində yaratdığı, tələbələrdən ibarət “Sevinc” özfəaliyyət rəqs ansamblı da dekadada uğurlu çıxşları ilə sevilmişdi.

Elmira Abdullayevanın yazılarından oxuyuruq: “Əlibaba Abdullayev təbii talant idi. O, bu xalqın içindən çıxmış, musiqisini, mahnılarını, muğamlarını, tarixini, ədəbiyyatını, nağıllarını, adət-ənənələrini, oyunlarını, meyxanalarını bilir, onlardan yerində və çox bacarıqla istifadə edirdi. Onun dərin fantaziyası və gələcək planları var idi. Onların bir hissəsini həyata keçirə bildi: “Yallı-Zorxana”, “Gənclik”, “Məhsul”- suitalar, “Azərbaycan toyu”, “Köhnə Bakı”- kompozisiyalar, “Şəki”, “Səməni”, “Tirmə şal”, “Bahar”-rəqslər və s. Ə.Abdullayevin çoxdankı arzusu idi ki, “Min bir gecə” Azərbaycan xalq nağılları əsasında rəqs quruluşları versin. Qismət olmadı. Bu fikirlər onun sənədləri arasında qaldı. “Yallı-Zorxan”anın yeni variantı üzərində işləyirdi, esgiz-albomunda “Pərvanə” rəqsini qurmaq istədiyini bir neçə dəfə qeyd etmişdi, dedi-qodular bunu həyata keçirməyə imkan vermədi” (2, 57-58).

Qeyd olunmalıdır ki, Əlibaba Abdullayev həm də gözəl səsli müğənni idi. Özünün quruluşunda duet-rəqslərdə Tutu Həmidova və Leyla Bədirbəyli ilə oxuyurdu. Onların rəqs edib oxumaları çox gözəl alınırdı. Doğrudan da Ə.Abdullayev xalq mahnılarını, muğamları, folkloru və meyxana janrını çox yaxşı bilirdi. Bunlardan əlavə musiqi bəstələmək və rəssamlıq qabiliyyətinə də malik idi.

Əlibaba Abdullayev və Leyla Bədirbəyli “Birdənəsən” rəqsini ifa edir, həm də instrumental heyətin və xorun müşayiəti ilə oxuyurdular. Ə.Abdullayev bu rəqsi məxsusi Leyla xanımın ifasını nəzərdə tutaraq qurmuşdu. Əlibaba müəllim sonralar Tutu Həmidova ilə tərəf müqabil olaraq “Dilbərim”, “Qarabağın maralı”, “Muleyli”, “Sarı gəlin”, “Yaylığı” rəqslərində çıxış edərkən hər ikisi həm də oxuyurdu.

Maraqlı həm də burasıdır ki, Tutu xanımın da səsi və yaxşı oxumaq bacarığı var idi. Ə.Abdullayev həmin rəqslər üzərində quruluş verərkən Tutu xanımı nəzərdə tutmuşdu (2, s.11). Xalq artisti L.Bədirbəyli Ə.Abdullayevin yubileyində tamaşaçılarla öz xatirələrini bölüşərkən demişdir: “Əlibaba ilə rəqsdə həm də oxuyurduq.

Onun çox məlahətli, gözəl səsi var idi. Mənim səsim oxumaq üçün o qədər xoşalən olmasa da, Əlibabanın səsinin fonunda nəsə bir şey alınırdı”.

*(Davamı var)*